*Azərbaycan Respublikası*
*Vəkillər Kollegiyası Rəyasət*
*Heyətinin 27.09.2018-ci il tarixli*
*qərarı ilə təsdiq olunmuşdur.*

**"Vəkil orderi və order markası haqqında"**

# Ə S A S N A M Ə

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinin 8.2-ci bəndinin 16-cı yarımbəndini rəhbər turaraq, habelə Vəkillər Kollegiyasının üzvləri (bundan sonra – vəkil) tərəfindən isifadə olunan vəkil orderi və order markasının formalarını, hazırlanması və istifadə qaydalarını müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti "Vəkil orderi və order markası haqqında" bu Əsasnaməni (bundan sonra – Əsasnamə) qəbul edir.

## Maddə 1. Əsas anlayışlar

1.1. **Azərbaycan Respublikasının Vəkillər Kollegiyası** (bundan sonra – Vəkillər Kollegiyası) - Qeyri-dövlət, müstəqil, özünü idarə edən, bütün vəkillərin daxil olduğu və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında yaradılmış hüquqi şəxs.

1.2. **Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti** (bundan sonra – Rəyasət Heyəti) – Vəkillər Kollegiyasının icra orqanı.

1.3. **Vəkil** – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü.

1.4. **Müvəkkil** – vəkilə hüquqi yardım göstərilməsi üçün müraciət etmiş şəxs.

1.5. **Vəkil orderi** (bundan sonra – order) – müvəkkil ilə vəkil (vəkil qurumu) arasında bağlanmış müqavilə əsasında hüquqi yardımın göstərilməsi ilə əlaqədar vəkilə səlahiyyətlərin verilməsini təsdiq edən unikal nömrəsi olan sənəd (1 nömrəli Əlavə).

1.6. **Order xərci** (bundan sonra – order markası) – Məbləği "Vəkillər və vəkillik fəaliyyət haqqında" Qanuna uyğun olaraq müəyyən edilən dövlət hesabına göstərilən hüquqi yardım istisna olmaqla vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə ödənişsiz hüquqi yardımın göstərilməsi, vəkilliyə qəbul üzrə icbari təlimlərin, vəkillərin peşə hazırlığı və ixtisaslarının artırılması üzrə davamlı tədris tədbirlərinin təşkili, maddi dəstəyə ehtiyacı olan vəkillərin təminatının gücləndirilməsi, habelə vəkilliyin təbliği və onun nüfuzunun artırılması ilə bağlı müxtəlif sosial tədbirlərin keçirilməsinin təmin edilməsi, order markasının çap edilməsi, Rəyasət Heyətinin müvafiq hesab etdiyi digər məsələlərin həlli məqsədilə məbləği, forması və ölçüləri Rəyasət Heyəti tərəfindən təyin

olunan və vəkil orderinə yapışdırılmaqla onun həqiqiliyini müəyyən edən, unikal nömrəli marka və ya holoqram (2 nömrəli Əlavə).

**Maddə 2. Orderin və order markasının hazırlanması və saxlanılması**

2.1. Order və order markası bu Əsasnamə ilə müəyyən olunmuş formaya uyğun şəkildə bir qayda olaraq mətbəədə order markasına unikal sıra nömrələri verilməklə çap edilir və onun uçotu müvafiq qeydiyyat kitabında Rəyasət Heyəti tərəfindən aparılır.

2.2. Orderin unikal nömrəsi ona yapışıdırılan order markası ilə müəyyən olunur.

2.3. Saxtalaşdırma hallarının qarşısının alınması məqsədilə order markasının ölçü və rəngi dəyişdirilə bilər.

2.4. İctimaiyyətin və aidiyyəti təşkilatların məlumatlandırılması məqsədilə order və order markasının ölçü, rəng və forması (bundan sonra – vizual xüsusiyyətləri) hər kəsin görəcəyi şəkildə Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində yerləşdirilir.

2.5. Fiziki cəhətdən zədələnmiş order markası Rəyasət Heyətinə qaytarılır və aktlaşdırılaraq məhv edilir, bu barədə müvafiq qeydiyyat kitabına Rəyasət Heyətinin bu işə təhkim olunmuş əməkdaşı tərəfindən qeydlər aparılır.

2.6. Order markaları Rəyasət Heyətinin bu işə təhkim olunmuş əməkdaşı tərəfindən bunun üçün ayrılmış seyfdə saxlanılır və mühafizə olunur. Seyfin açarlarının bir nüsxəsi bu işə təhkim olunmuş əməkdaşda, digər nüsxəsi Vəkillər Kollegiyasının sədrində saxlanılır. Vəkillər Kollegiyasının sədrinin tapşırığına əsasən, istənilən vaxt bu işə təhkim olunmuş əməkdaşın fəaliyyəti təftiş oluna bilər.

2.7. Dövlət hesabına göstərilən hüquqi yardım üzrə verilən orderdə order markasından istifadə olunmur. Bu cür orderlər vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən sifariş verilərkən sıra nömrəsi ilə nəşr etdirilir.

2.8. Dövlət hesabına göstərilən hüquqi yardım üzrə verilən order çəhrayı (RGB kodu üzrə: 255,182,193) rəngdə, order markası yapışdırılan orderlər isə yaşıl (RGB kodu üzrə: 0,250,154) rəngdə sifariş olunur.

**Maddə 3. Orderin və order markasının əldə olunması**

3.1. Order markaları mərkəzləşdirilmiş qaydada vəkil qurumları və fərdi vəkillər tərəfindən Rəyasət Heyətindən verdikləri sifariş əsasında əldə olunur. Order xərci bu barədə müvəkkil məlumatlandırılmaqla vəkil qurumunun rəhbəri, vəkil qurumunun hüquqi yardım göstərəcək vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən hüquqi yardım göstərilməsi haqqında müqavilə məbləğinə əlavə edilir.

3.2. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər order markasına görə ödənilən məbləği order markasını əldə etdikdən sonra bir qayda olaraq 3 (üç) iş günü ərzində bank hesabı vasitəsilə köçürürlər.

3.3. Order markasının vizual xüsusiyyətləri dəyişdirilə bildiyindən vəkil qurumları və fərdi vəkillər əvvəlki dövrün göstəricilərini nəzərə almaqla zəruri sayda order markası sifariş edirlər. Vizual cəhətdən köhnə order markaları Rəyasət Heyətinə qaytarılmaqla yenisi ilə əvəz olunurlar.

3.4. Order markaları bilavasitə vəkil qurumunun rəhbərinə, o hər hansı səbəbdən işdə olmadığı dövrdə qanunla müəyyən olunmuş qaydada (etibarnamə və ya əmr əsasında) onun vəzifələrini icra edən vəkilə Rəyasət Heyətdinin inzibati bindasında müvafiq qeydiyyat kitabına qeydlər aparılmaqla təhvil verilir.

**Maddə 4. Orderin və order markasının istifadəsi**

4.1. Order vəkil qurumunda (fərdi qaydada fəaliyyət göstərən vəkildə) və təqdim olunacaq təşkilatda qalmaq şərtilə 2 (iki) nüsxədə tərtib olunmaqla vəkil qurumunun rəhbərinin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin imza və möhürü ilə təsdiqlənir. Vəkil qurumunda (fərdi qaydada fəaliyyət göstərən vəkildə) qalacaq orderin ikinci nüsxəsi əsl nüsxənin surətinin çıxarılması yolu ilə vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil) tərəfindən imza və möhürlə təsdiqlənir.

4.2. Orderdə qeyd olunan tapşırığın məzmunu göstərilməklə onların qeydiyyatı vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təmin edilir.

4.3. Vəkilin icraartında olan bir iş ilə əlaqədar vəkil orderinin sonrakı istifadəsi (cəzaçəkmə müəssisələrinə təqdim edilməsi ilə bağlı) üzrə nüsxələri vəkilin üzvü olduğu vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin özünün möhürü ilə təsdiqlənir.

**Maddə 5. Yekun müddəalar**

5.1. Bu Əsasnamənin qəbul olunması ilə Rəyasət Heyətinin 15.08.2005-ci il tarixli qərarı ilə təsdiq olunmuş order forması yeni order və order markalarının nümunələri barədə məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları və digər dövlət və qeyri-dövlət orqanları müvafiq qaydada xəbərdar edilənədək öz qüvvəsini saxlayır.

5.2. Rəyasət Heyəti 2 (iki) ay ərzində yeni order və order markalarının nümunələrini məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları və digər dövlət və qeyri-dövlət orqanları göndərməklə məlumatlandırır, həmçinin nümunələr barədə Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində məlumat verir.

**Azərbaycan Respublikası**
**Vəkillər Kollegiyası Rəyasət Heyətinin**
**27.09.2018-ci il tarixli qərarı ilə təsdiq**
**olunmuş "Vəkil orderi və order markası**
**haqqında" Əsasnaməyə 1 saylı əlavə**

## Vəkil orderinin standart forması

Vəkil orderi 9327-60 dövlətlərarası standart üzrə A4 (210x297 mm) formatlı, qalınlığı 120 qr/m2 olan ağ kağıza çap olunmaqla özündə aşağıdakı məlumatları əks etdirir.

**Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.**

**AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI**

**Order markası**
**№ 0000000**

**VƏKİL ORDERİ**

**Tarixi: 00.00.0000**

Vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil): ______________________________

Adı, ünvanı, telefon nömrəsi (soyadı, adı və atasının adı)

______________________________________________________________

Müqavilənin (qərarın) tarixi: ________________ Müqavilənin nömrəsi: ______________

Vəkil ______________________________________________________________

(Soyadı, adı, atasının adı və vəkil vəsiqəsinin nömrəsi)

Hüquqi yardım göstərilən şəxs: ______________________________________________

(Soyadı, adı və atasının adı/Hüquqi şəxsin adı və VÖEN-i)

Tapşırığın məzmunu və işin mərhələsi: ________________________________________

______________________________________________________________

______________________________________________________________

Tapşırığın yerinə yetirildiyi təşkilat: ________________________________________

______________________________________________________________

Vəkilin imzası: ______________________________________________________

Vəkil qurumunun rəhbərinin imzası və möhürü (fərdi qaydada fəaliyyət göstərən vəkil): ______________

**Azərbaycan Respublikası**
**Vəkillər Kollegiyası Rəyasət Heyətinin**
**27.09.2018-ci il tarixli qərarı ilə təsdiq**
**olunmuş "Vəkil orderi və order markası**
**haqqında" Əsasnaməyə 2 saylı əlavə**

## Order markasının forması

Order markasının eni 4 sm, hündürlüyü 2,5 sm-dir.

